**NAXÇIVAN MUXTAR RESPUBLİKASININ**
**NAZİRLƏR KABİNETİ**

# Q Ə R A R

**Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin 2020-ci il 2 iyun tarixli 95 nömrəli Qərarı ilə təsdiq edilmiş "Naxçıvan Muxtar Respublikasında pedaqoji fəaliyyətlə məşğul olma Qaydası"nda dəyişiklik edilməsi haqqında**

"Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2020-ci il 30 aprel tarixli 156 nömrəli Qərarı ilə təsdiq edilmiş "Pedaqoji fəaliyyətlə məşğul olma Qaydası"nda dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2022-ci il 21 iyun tarixli 233 nömrəli Qərarına uyğun olaraq Naxçıvan Muxtar Respublikasının Nazirlər Kabineti **qərara alır:**

Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin 2020-ci il 2 iyun tarixli 95 nömrəli Qərarı ilə təsdiq edilmiş "Naxçıvan Muxtar Respublikasında pedaqoji fəaliyyətlə məşğul olma Qaydası"nda aşağıdakı dəyişikliklər edilsin:

1. 2.2-ci bənddə "və 3.3-cü bəndlərinin tələbləri" sözləri "bəndi" sözü ilə əvəz edilsin.

2. 3.3-cü bənddə "3.2-ci bəndində göstərilən halda" sözləri "4.2-ci bəndinin birinci cümləsinə uyğun olaraq müəllimlərin işə qəbulu müsabiqəsinin nəticəsinə əsasən işə qəbul olunmuş" sözləri ilə əvəz edilsin.

3. 4.2-ci bənddə "Komissiya" sözü "Naxçıvan Muxtar Respublikasının Dövlət İmtahan Mərkəzi" sözləri ilə əvəz edilsin və həmin bəndə aşağıdakı məzmunda ikinci cümlə əlavə edilsin:

“Müsabiqəyə buraxılan ali təhsilin bakalavriat səviyyəsi üzrə ixtisasların siyahısı hər il müsabiqədən əvvəl Naxçıvan Muxtar Respublikası Dövlət İmtahan Mərkəzinin internet portalında yerləşdirilir.”.

**Naxçıvan Muxtar Respublikasının**
**Baş naziri** **Səbuhi Məmmədov**

Naxçıvan şəhəri, “15” iyul 2022-ci il

№ 151